

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 229 (23.140)

*30 noyabr 2018-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı sahəsində mühüm tədbirlər görülür. “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın qəbul olunması bu sahədə həyata keçirilən tədbirlərin davamlılığını təmin etmiş, keyfiyyətli və rəqabətədavamlı turizm infrastrukturunun yaradılması üçün geniş imkanlar açmışdır.

Əlverişli təbii-coğrafi şəraiti və havası, zəngin flora və fauna ehtiyatı, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən Şahbuz rayonunun Ağbulaq kəndi kənd turizmi üçün əlverişli şəraitə malik olduğuna görə burada mühüm tədbirlər həyata keçirilmişdir. Ağbulaq kəndində fasiləsiz elektrik enerjisi ilə təminat, təbii qaz xəttinin, telefon rabitəsinin və internetin mövcudluğu, yeni yolun çəkilməsi, məktəb binasının, kənd və xidmət mərkəzlərinin, tibb məntəqəsinin tikilib istifadəyə verilməsi kəndin turizm imkanlarını xeyli artırmış, Ağbulaq İstirahət Mərkəzi yaradılmışdır. Kənddə ekoloji cəhətdən təmiz qida məhsullarının istehsalı üçün də tədbirlər görülmüş, meyvəçilik, tərəvəzçilik, arıçılıq və heyvandarlıq inkişaf etdirilmişdir.

Ağbulaqda turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər 2018-ci ildə də davam etdirilmiş, kənddəki evlər yenidən qurulmuş, dam örtükləri və fasadlar yenilənmiş, turistlərin qəbulu üçün lazımi kommunal-məişət şəraiti yaradılmış, təsərrüfat binaları tikilmişdir. Bundan əlavə kənddə Ağbulaq Xizək Mərkəzinin yaradılmasına başlanılmışdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılsın.
2. Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin turist marşrutuna daxil edilməsi və tanıdılması ilə bağlı tədbirlər görsün.
3. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində təbiətin qorunmasını və yaşıllıq sahələrinin genişləndirilməsini təmin etsin.
4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 noyabr 2018-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Noyabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Uilyam Qil ilə görüşmüşdür.

Ali Məclisin Sədri Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin muxtar respublikada həyata keçirdiyi tədbirləri diqqətə çatdırmışdır.

Təhsil və mədəniyyət sahəsində əlaqələrin əhəmiyyətini vurğulayan Ali Məclisin Sədri səfirlik tərəfindən 3 dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə Naxçıvanda məhdud fiziki imkanlı şəxslər üçün göstəriləcək tamaşanın məmnunluqla qarşılanacağına əminliyini bildirmiş və buna görə qonağa təşəkkür etmişdir.

Uilyam Qil səmimi münasibətə və səfirlik tərəfindən keçirilən tədbirlərə göstərilən dəstəyə görə minnətdarlıq etmişdir. Ölkələrimiz arasındakı əlaqələrdən danışan qonaq muxtar respublikaya ilk dəfə səfər etdiyini və bundan böyük məmnunluq duyduğunu bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən həyata keçirilən “Azərbaycanda miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi” layihəsinin yekun qiymətləndirilməsi ilə bağlı görüş keçirilib.*

## Layihənin yekun qiymətləndirilməsi ilə bağlı tədbir keçirilib



Tədbirdə Dövlət Miqrasiya Xidmətinin, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin əməkdaşları, eləcə də BMqT-nin Vyanadakı Regional ofisinin əməkdaşı Oksana Nazarcuk və iqtisadçı direktor Christian Bugnion de Moreta iştirak ediblər. Diskussiya şəraitində keçən görüşdə layihə ilə bağlı ötən dövr ərzində reallaşdırılmış tədbirlərin əhəmiyyətindən bəhs edilib.

Sonda tədbir iştirakçıları layihənin yekun qiymətləndirilməsini ediblər.

Xatırladaq ki, layihə çərçivəsində yeni viza rejiminin və readmissiya proseslərinin idarə edilməsi üçün səmərəli mexanizmlərin yaradılması və inkişaf etdirilməsi istiqamətində kömək göstərilməsi, səmərəli miqrasiya idarəçiliyi üçün qanunvericilik bazasını və institusional potensialların gücləndirilməsi, o cümlədən müvafiq təşkilatlar tərəfindən göstərilən xidmətlərin keyfiyyət və səmərəliliyinin, həmçinin idarələrarası əməkdaşlığın səviyyəsinin artırılması qarşıya hədəf kimi qoyulub. Bundan başqa, layihənin məqsədləri sırasında texniki təkmilləşdirmə və avadanlıqların müasirləşdirilməsi vasitəsilə sərhəd nəzarəti və yoxlamaları prosedurlarının keyfiyyətini artırmaqla inteqrasiya edilmiş sərhəd idarəçiliyi üçün milli potensialları gücləndirmək də yer alıb.

**✍ Nail ƏSGƏROV**

## Kənd təsərrüfatı məhsullarının istehsal həcmi daxili istehsalda öz liderliyini qoruyur

*Bu günlərdə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi 2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikanın sosial-iqtisadi inkişafının nəticələrini özündə əks etdirən növbəti statistikanı açıqladı.*

Statistikaya görə, 2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada 2 milyard 172 milyon 378 min 700 manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Əvvəlki aylarda olduğu kimi, cari ilin ilk on ayında da ümumi daxili məhsul istehsalında ilk yeri sənaye sahəsi tutur. Belə ki, sənaye üzrə 827 milyon 648 min 800 manat dəyərində məhsul istehsal edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Kənd təsərrüfatı məhsullarının istehsal həcminə gəldikdə isə bu sahədə əldə olunan artım daha yüksəkdir.

Qeyd edək ki, 2018-ci ilin yanvar-oktyabr aylarında 386 milyon 792 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,1 faiz çoxdur. Kənd təsərrüfatı məhsulları içərisində heyvandarlıq məhsullarının istehsal həcmi daha çoxdur. Bəhs olunan dövr ərzində diri çəkidə ət istehsalı 19926,1 tona, süd istehsalı isə 77230 tona çatıb. Analoji olaraq ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalında 5,2, süd istehsalında isə 1,3 faiz artım qeydə alınıb.

Təbii ki, açıqlanan rəqəmlər aqrar sektorda mühüm nailiyyətlərin əldə olunmasının göstəricisidir. Burada əsas məsələ dövlətin kənd təsərrüfatı sahəsinə olan diqqəti, bu sahənin inkişafı üçün həyata keçirdiyi tədbirlərdir. İndiyədək muxtar respublikamızda kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində görülən işlər onu sübut edir ki, aqrar sektor dövlətimizin prioritet qəbul etdiyi strateji istiqamətlərdəndir. Bu sahənin inkişafı üçün müxtəlif dövlət proqramlarının qəbul edilməsi, sahibkarlar, xüsusilə torpaq mülkiyyətçiləri ilə keçirilən görüşlər, dövlət tərəfindən bu sahə ilə məşğul olanlara hərtərəfli yardımların göstərilməsi aqrar bölmənin inkişaf perspektivlərini müəyyənləşdirməyə imkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri də müxtəlif görüşlərdə kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlərin zəruriliyini vurğulayıb, bu sahənin muxtar respublikanın strateji ərzaq təhlükəsizliyinin təmin olunmasında önəmli rol oynadığını bildirib.

Adətən, hər zaman sənayenin aqrar sektora münasibətdə genişlənməsi iqtisadi inkişafın göstəricisi kimi qəbul edilir. Doğrudur, sənaye sahəsi məhsul istehsalında yeniliklərin birbaşa tətbiq olunduğu, eyni zamanda istehsal həcmini artırmağa imkan verən sektordur. Ancaq bunu da unutmaq olmaz ki, sənayenin, xüsusilə ərzaq sənayesinin inkişafı birbaşa kənd təsərrüfatına bağlıdır. Yəni aqrar sektoru inkişaf etdirmədən sənayedə də uğur qazanmaq çətindir. Bu gün inkişaf etmiş ölkələrin iqtisadi göstəricilərinə nəzər salsaq, görərik ki, həmin ölkələrdə kənd təsərrüfatı sahələri kifayət qədər inkişaf edib. Sənaye isə bu sektorun üzərində daha da irəli gedərək həmin ölkələri istehsalçı ölkələrə çevirib. Bu baxımdan düşünürük ki, tarixən aqrar xüsusiyyətlərə və imkanlara malik muxtar respublikamızda kənd təsərrüfatının inkişafı hər zaman öz əhəmiyyətini qoruyacaq.

Yeri gəlmişkən onu da vurğulayaq ki, kənd təsərrüfatının hərtərəfli inkişafında ən mühüm amil bu sahədə infrastruktur tədbirlərinin həyata keçirilməsidir. Hətta aqrar sektorda belə tədbirlərin həyata keçirilməsi digər sahələrlə müqayisədə daha bahalı və müddət tələb edəndir. Hamımıza məlumdur ki, son illərdə muxtar respublikamızda əkin sahələrinin suvarılması üçün mövcud su mənbələrindən on kilometrlərlə uzaqda yerləşən əkin sahələrinə yeni su xətləri çəkilir. Bu cür layihələrin həyata keçirilməsi və nəticədə, əkiləcək torpaqlar üçün müasir suvarma sistemlərinin tətbiq olunması hazırda bütün dünyada bahalı layihələrdən sayılır. Məsələnin digər tərəfi ondan ibarətdir ki, muxtar respublikamızda əkin üçün yararsız, şoranlaşmış ərazilər də az deyil. İndi əsas məqsəd belə torpaqların şoranlaşmasının qarşısını almaq, davamlı olaraq onları əkin dövriyyəsinə cəlb etməkdir. Bu isə maliyyə ilə yanaşı, həm də zaman tələb edir. Yəni bütün bu sadaladığımız işlər həm də o deməkdir ki, indi muxtar respublikada aqrar sektora dövlət tərəfindən böyük investisiyalar qoyulur. Nəticədə, yaxın gələcəkdə kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırmaq üçün yeni imkanlar yaradılır. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, muxtar respublikamızda kənd təsərrüfatının inkişafı üçün atılan addımlar bu sahənin davamlı inkişafını təmin etməklə yanaşı, növbəti illərdə onun yerli iqtisadiyyatda payını da artıracaq.

**✍ Səbuhi HƏSƏNOV**

**Müasirləşən bölgələrimiz**

# İnkişafa gedən yolda inamlı addımların sədası...



***Təbiətin qızılı dona büründüyü, buludların günəşə göz açmağa macal vermədiyi bir gündə yolumuz məğrur duruşu ilə düşmənə meydan oxuyan əzəmətli Əlincəqalanın, zirvəsinə buludların sığal çəkdiyi Nuh yadigarı Haçadağın, hər daşında tarixin izləri sezilən möhtəşəm Gülüstan türbəsinin ucaldığı qədim yurd yerimiz Culfayadır. Naxçıvan şəhərindən rayon mərkəzinə uzanan, ilan kimi gah qıvrılıb, gah açılan geniş, rahat yolla irəliləyən maşının pəncərəsindən ətrafa boylananda gözlərim önündə payızın füsunkar mənzərələri canlanır. Rənglərin harmoniyasından doğan bu gözəlliklər, sanki mahir bir rəssamın incə zövqlə işlədiyi mükəmməl sənət əsərini xatırladır. Yol kənarlarına xüsusi nizamla əkilən ağacların yarpaqlarının xəfif küləyin təsiri ilə budaqlardan qoparaq aramla yerə enməsi insanda qeyri-adi nostalji hisslər yaşadır. Sıra ilə düzülən, sanki bu torpağı bədnəzərlərdən qorumağa çalışan dağların üzərini ağ yorğana bənzəyən çən, duman qatı örtür, asta-asta yağan yağışın ağaclarda son günlərini keçirən qızılı rəngli yarpaqların üzərindəki damlaları almaztək parıldayır. Bu mənzərələrlə baş-başa qalan insanın, sanki ruhu dincəlir, könlü dil açır, pərvazlanır. Bir azdan ecazkar təbiət mənzərələri öz yerini gözoxşayan həmişəyaşıl ağaclarla bəzənən rəvan səkilərə, yaraşıqlı inzibati binalara verəcək...***

Budur, artıq Culfanın axarlı-baxarlı Gülüstan kəndi görünür. Rayon mərkəzinə yetişdiyimizi isə ilk olaraq giriş hissədə yerləşən, üzərində Culfa şəhəri yazılan xüsusi tablo xəbər verir. Az sonra hər addımda müstəqillik illərinin bənzərsiz bəhrələri canlanır. Culfa şəhərinin hüsnünə xüsusi yaraşıq gətirən, həyətində həmişəyaşıl ağacların boy göstərdiyi, təhsil, səhiyyə və mədəniyyət ocaqlarının gözoxşayan binaları rayonun quruculuq xəritəsinin hələ ilkin çalarlarıdır. Məqsədimiz isə rayonun keçdiyi böyük inkişaf yoluna qısa nəzər salmaqdır...

Bəli, son 23 ildə Culfada həyata keçirilən layihələr, görülən məqsədyönlü tədbirlər nəticəsində bütün sahələrin dinamik inkişafı təmin edilib, aparılan kompleks tikinti-quraşdırma, abadlıq və yenidənqurma işləri bölgənin simasını daha baxımlı və gözoxşayan formaya salıb. Bəhs olunan dövrdə rayonun onlarla yaşayış məntəqəsi abad kəndlər sırasına qoşulub, məktəblər, uşaq bağçaları, idman mərkəzləri, səhiyyə və mədəniyyət ocaqları üçün ən yeni avadanlıqlarla təchiz olunmuş müasir binalar istifadəyə verilib. Sosial sahədə aparılan uğurlu siyasət nəticəsində insanların həyat səviyyəsi yaxşılaşıb, torpağa bağlılığı, yaşayıb-yaratmaq əzmi artıb. İlbəil daha böyük inkişaf mərhələsinə qədəm qoyan Culfa rayonu 2018-ci ili də uğurla başa vurmaq üzrədir.

### *Quruculuq tədbirləri rayona xüsusi yaraşıq gətirib*

Müstəqillik illərində muxtar respublikanın bütün bölgələri kimi, Culfa rayonu da aparılan genişmiqyaslı quruculuq tədbirlərindən lazımınca bəhrələnib. Rayonun sovet dönəmindən qalma köhnə, yararsız tikililərinin yerində müasir görünüşlü, hərtərəfli şəraitə malik yeni binalar ucaldılıb, rayon mərkəzi və kəndlərin yol infrastrukturu tamamilə yenilənib, əvvəllər su sarıdan əziyyət çəkən insanların arzuları həyata keçib. İndi rayonun hansı yaşayış məntəqəsinə üz tutsan, orada gözəllik, firavanlıq, əmin-amanlıq içində yaşayan insanlarla qarşılaşarsan. İldən-ilə həcmi genişlənən tikinti-quruculuq tədbirləri 2018-ci ildə də uğurla davam etdirilir. Cari ilin 10 ayının statistik nəticələri də deyilənlərin əyani sübutudur.

Belə ki, bəhs olunan dövrdə rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 30 milyon 404 min 400 manat vəsait yönəldilib. Bunun da 28 milyon 32 min 300 manatı və ya 92,2 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Bu müddət ərzində rayonda 18 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 10 obyektdə işlər uğurla davam etdirilir.



Bölgələrə yolumuz düşəndə hər bir yaşayış məntəqəsində gözəl, yaraşıqlı kənd və xidmət mərkəzləri, məktəb binaları, həkim ambulatoriyaları ilə qarşılaşırıq. Cari ildə Dizədə kənd və xidmət mərkəzlərinin, 234 yerlik yeni məktəb binasının tikintisi yekunlaşıb, həmin sosial obyektlər öz qapılarını dizəlilərin üzünə açıb. Rayonun digər yaşayış məntəqəsi Qazançıda isə kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası və məktəb üçün binaların inşası tamamlanıb.

Culfada yaşayış səviyyəsinin yüksəlməsinin nəticəsidir ki, demoqrafik vəziyyət də ilbəil daha da yaxşılaşır, sakinlərin maddi vəziyyəti yüksəlir. Təbii ki, bütün bu canlanma prosesləri yol infrastrukturuna da təsirsiz ötüşmür. Elə bu məqsədlə rayon mərkəzinin və kəndlərin yolları daha da müasir formaya salınır, yol nişanları yenilənir. Cari ildə də bu istiqamətdə tədbirlər uğurla həyata keçirilir. Belə ki, rayonun Dizə kəndindəki avtomobil yolu yenidən qurularaq istifadəyə verilib, Culfa-Ordubad magistralı yenidən qurulur və Qazançının kənddaxili yollarında təmir-tikinti işləri başa çatdırılıb.

Təbii ki, bölgədə yaradılan müasir infrastruktur, həyata keçirilən layihələr, ilk növbədə, insan amilinə əsaslanır, sakinlərin rifah halının yüksəldilməsinə xidmət edir. Bu istiqamətdə aparılan uğurlu siyasət ilbəil öz bəhrələrini verir, iş-güc sahibi olan insanlar öz maddi vəsaitləri hesabına yeni fərdi yaşayış evləri tikdirirlər. Cari ilin ötən dövründə Culfada sakinlərin şəxsi vəsaiti hesabına, ümumilikdə, 27 min kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da 2017-ci ilin müvafiq dövründəki göstəricidən çoxdur.

### *Aqrar sahədə qazanılan uğurlar barədə bir neçə söz...*

Culfada kənd təsərrüfatının inkişafı prioritet istiqamət kimi daim diqqət mərkəzindədir. Torpaqların münbitliyinin artırılması üçün görülən tədbirlər əkilən ərazilərin miqyasının ilbəil daha da genişlənməsi ilə nəticələnir. Fermerlərə subsidiya və gübrələrin verilməsi, texnikalarla təminat, o cümlədən keyfiyyətli yerli toxum sortlarından istifadə əkilən ərazilərin məhsuldarlığını artırır. Naxçıvan şəhərində keçirilən ənənəvi festivallarda, bu günlərdə ilk olaraq rayonda keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında bu bölgənin torpaq adamlarının fəallığı, burada məhsul çeşidlərinin alıcılar tərəfindən maraqla qarşılanması da Culfada aqrar sahənin inkişafından xəbər verir. Cari ilin ötən ilk 10 ayının nəticələri də bu baxımdan ürəkaçandır. Belə ki, 2018-ci ilin məhsulu üçün əkilən ərazilərin 6 min 626 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 8 hektarını dən üçün qarğıdalı, 12 hektarını dən üçün günəbaxan, 128 hektarını ərzaq üçün bostan bitkiləri, 278 hektarını kartof təşkil edib. Əkinlərin vaxtlı-vaxtında suvarılması, düzgün aqrotexniki qulluğun göstərilməsi bol məhsul tədarükünə səbəb olub. Əkin sahələrindən 19 min 102 ton dənli və dənli-paxlalılar (qarğıdalısız), 36,3 ton dən üçün qarğıdalı, 37,2 ton dən üçün günəbaxan, 3006 ton kartof, 1854 ton bostan məhsulları toplanılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası Culfa rayonunda əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə geniş imkanlar açıb. Cari ilin 1 noyabr tarixinə olan məlumata əsasən becərilən 340 hektar tərəvəz əkini sahəsindən 4225, meyvə bağlarından 3215, üzüm bağlarından isə 5897 ton məhsul yığılıb. Üzümçülüyün inkişafı istiqamətində yerli resurslardan istifadə olunmaqla yeni üzüm bağlarının salınması üçün tinglərin becərilməsinə başlanılıb.

Düzənlik və otlaq əraziləri ilə bol olan Culfada sakinlərin əsas məşğuliyyət növlərindən biri də maldarlıq və heyvandarlıqdır. Sahələrin vaxtlı-vaxtında suvarılması, qışa hazırlıq zamanı kifayət qədər yem tədarük edilməsi fermerlərin təsərrüfatlarını ilbəil daha da genişləndirmələrinə imkan verir. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında rayon təsərrüfatçılarının istehsal etdikləri ağartı məhsulları piştaxtaları bəzəyir. Yaxşı qazanc olan yerdə işləməyə, zəhmət çəkməyə dəyər – şüarı ilə



çalışan torpaq adamları cari ili də uğurla başa vurmaq niyyətindədirlər. 2018-ci ilin ilk 10 ayının statistik göstəriciləri də zəhmətkeş insanların alın təri hesabına qazandıqları böyük nailiyyətlərdən xəbər verir. Belə ki, bəhs olunan dövrdə rayonda diri çəkidə 3056 ton ət, 9012 ton süd, 133,2 ton yun istehsal edilib. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,5, süd istehsalı 1,3, yun istehsalı 1,1 faiz artıb. Ümumiyyətlə, rayon üzrə 2018-ci ilin yanvar-oktyabr aylarında bir il öncəyə nisbətən 3,5 faiz çox, yəni 48 milyon 314 min 600 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal edilib.

### *Sakinlər həyata keçirilən uğurlu tədbirlərdən razılıqla danışırlar*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrası Culfa rayonunda da artıq öz bəhrələrini verir. İnfrastrukturun ən müasir tələblər səviyyəsində qurulması, yeni obyektlərin istifadəyə verilməsi sakinlərin sosial rifah halına müsbət təsir göstərməklə yanaşı, həm də yüzlərlə insanın müvafiq işlərlə təmin edilməsinə səbəb olub. İl ərzində mütəmadi olaraq keçirilən əmək yarmarkalarına culfalıların maraq göstərməsi, onların burada özlərinə uyğun iş tapmaları böyük sosial irəliləyişdən xəbər verir. Cari ilin ötən dövründə rayonda 310 yeni iş yeri açılıb ki, bunun da 307-si və ya 99 faizi daimi iş yerləridir. Sakinlərin məşğulluğunun təmini istiqamətində atılan addımlar orta aylıq əməkhaqqının məbləğinin 398,7 manat həcmində olması ilə nəticələnib. Bu da 2017-ci ilin müvafiq dövründəki göstəricidən 4 faiz çoxdur.

Həyata keçirilən sosialyönümlü siyasət, aparılan genişmiqyaslı quruculuq tədbirləri sakinlər tərəfindən böyük razılıqla qarşılanır. Rayon sakini, yaşı 65-i adlamış təqaüdçü müəllim Radiq Şahmərdanovun dediklərindən:

– Rayonumuzun bugünkü büsatını, gənclərə yaradılan gözəl şəraiti görəndə xəyalım qeyri-iradi məni keçmişə qaytarır. Müəllim kimi yenicə fəaliyyətə başladığım vaxtlarda qarşılaşdığım çətinliklər, o dövrün məktəblərində hökm sürən acınacaqlı vəziyyət kinolenti kimi gözlərim önündən gəlib keçir. Yaxşı yadımdadır, o illərdə yarıtmaz sosial şərait gəncləri müəllim peşəsindən uzaq salır, işsizlik üzündən insanlar qonşu ölkələrə üz tuturdular. Lakin ölkəmiz müstəqillik qazandıqdan sonra qarşımızda əsl nicat yolu açıldı, qısa zaman çərçivəsində rayonda bütün sahələrin dirçəlişinə nail olundu, ruzi-bərəkətlə dolu dövrə qədəm qoyduq. Sevindirici haldır ki, bu gün ən ucqar kəndlərdə belə, hərtərəfli şəraitə malik müasir məktəb binaları fəaliyyət göstərir, uşaqlarımız gələcəyin savadlı, bilikli məzunları kimi yetişirlər. Həmin təhsil müəssisələrində bacarıqlı müəllimlər çalışır, onların əməyi yüksək qiymətləndirilir, yaxşı məvaciblə təmin olunurlar. Sovetlər dövründə şəhərdən kəndə dərs demək üçün gənc müəllim təsadüfi hallarda gələrdi. Günümüzün reallığı isə onu göstərir ki, ucqar kənd məktəblərinə can atan gənc müəllimlər kifayət qədərdir. Təbii ki, bütün bunlar dövlətimizin təhsil sahəsinə, gənc müəllimlərə göstərdiyi böyük diqqətdən irəli gəlir. Bir təqaüdçü müəllim kimi aparılan uğurlu siyasəti ürəkdən alqışlayır, qurub-yaradan əllərə var olsun, – deyirəm.

Digər bir həmsöhbətimiz Bənəniyar kənd sakini, 62 yaşlı Davud Bağırov rayonun keçdiyi inkişaf yoluna qısa nəzər saldı, insanlara göstərilən dövlət qayğısından ürəkdolusu danışdı:

– Ölkəmiz dövlət müstəqilliyi əldə edəndən sonra hər bir culfalının ürəyində ümid çırağı şölələnməyə başladı. Torpaqlar özümüzə qaytarıldı, əkib-becərdik, özümüzə gün-güzəran qurduq, yurd-yuvalarından köç edən qohum-əqrəbamız öz doğma el-obalarına qayıtdılar. İllər ötdükcə quruculuq tədbirləri daha böyük vüsət aldı, Vətən, torpaq təəssübkeşlərinin yorulmaz əməyi sayəsində yurdumuz gülüstana çevrildi. 2017-ci ilin yanvar ayında isə zəhmətkeş culfalıların illərdən bəri intizarında olduqları, həsrətlə gözlənilən su problemi həll edildi, qəlblərə məlhəm, torpaqlara bərəkət gəldi. Bu gün hər bir rayon sakini dövlətimizin apardığı uğurlu siyasəti, atılan xeyirxah addımları rəğbətlə alqışlayır, öz işimizlə böyük inkişafa töhfə verməyə çalışırıq. Əkib-becərməyə torpağımız, suyumuz, texnikamız, gübrəmiz, bir sözlə, hərtərəfli şəraitimiz var. Bütün bu yaradılan imkanlara görə rayon sakinləri adından dövlətimizə minnətdaram.

*...Statistik nəticələrdən, eləcə də rayon ziyalıları ilə söhbətlərimizdən belə qənaətə gəldik ki, başa vurmaqda olduğumuz 2018-ci il də culfalıların həyatına qızıl hərflərlə yazılır, inkişafa gedən yolda atılan inamlı addımların sədası elə hər addımda hiss edilir. Əminliklə demək olar ki, növbəti illərdə bu bölgəmiz muxtar respublikanın sosial-iqtisadi inkişafında daha böyük pay sahibi olacaq.*

**Nail ƏSGƏROV**

## Görkəmli rəssam İbrahim Səfiyevin əsərlərindən ibarət sərgi açılıb

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda görkəmli rəssam İbrahim Səfiyevin əsərlərindən ibarət sərgi açılıb.*



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva tədbirdə çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 17 oktyabr tarixli Sərəncamı Türk dünyasının tanınmış rəssamının həyat və yaradıcılığının daha geniş tədqiq olunmasına və öyrənilməsinə xidmət etməklə bərabər, həm də görkəmli sənətkarın irsinə göstərilən diqqətin və muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin ifadəsidir. Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyi münasibətilə onun əsərlərindən ibarət sərgi keçirilir. Əslən naxçıvanlı olan rəssam türk rəssamlıq sənəti tarixində özünəməxsus üslubu ilə tanınıb və Türkiyə rəssamlığına yeni nəfəs gətirib. Dünya incəsənətinin mütərəqqi ənənələrinin davamçısı olan rəssam boyakarlığın müxtəlif janrlarında çoxlu tablo, o cümlədən mənzərələr, portretlər yaradıb. Onun rəsm əsərlərində hiss və duyğular, biçim və forma, rəng fırçanın gücü ilə böyük ustalıqla təsvir olunub. Görkəmli rəssam sənətə bağlı ömrünü saysız-hesabsız qiymətli əsərləri ilə zənginləşdirib.

Ülviyyə Həmzəyeva Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə görkəmli rəssam İbrahim Səfiyevin irsinə göstərdiyi yüksək diqqət və qayğıya görə muxtar respublika rəssamları və ziyalıları adından minnətdarlığını bildirib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında vurğulayıb ki, muxtar respublikamızda bütün sahələrlə yanaşı, tariximizin qaranlıq səhifələrinə də işıq salınır, tarixi şəxsiyyətlərimiz xalqımıza və geniş ictimaiyyətə təqdim edilir, tanıdılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iki sərəncamı – görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi və görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqındakı tarixi qərarları muxtar respublika ziyalılarının və geniş ictimaiyyətin



dərin marağına və minnətdarlığına səbəb olub.

Qeyd edilib ki, görkəmli rəssam İbrahim Səfiyev kiçik yaşlarından rəsmə həvəs göstərib, 12 yaşında ikən "Araz balıqçıları" adlı ilk rəsmini çəkib. Daha sonra məlum səbəblərə görə yaşadığı sıxıntılara baxmayaraq, bütün həyatını tamamən sənətə həsr edib. O, yaradıcılığında realizmə üstünlük verib, dünya incəsənətinə xas ənənələri öz əsərlərində nümayiş etdirib. Dünyanın bir çox ölkələrində sənətkarın fərdi sərgiləri təşkil olunub. Rəssamın qalın rəng mozaikasından yoğrulmuş portretlərində və digər əsərlərində yenilik və qeyri-adilik özünün aydın təzahürünü büruzə verir. İbrahim Səfiyev görkəmli Azərbaycan rəssamı kimi tanınmağa, təbliğ olunmağa layiq şəxsiyyətdir.

Sonra sərgiyə baxış keçirilib. Qeyd edək ki, ekspozisiyada rəssamın 53 rəsm əsəri sərgilənib.

**"Şərq qapısı"**

## *"Adamlar və siçanlar"* tamaşası nümayiş etdirilib





*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin dəstəyi ilə ölkəmizin ilk inklüziv teatrı olan "ƏSA" teatrının kollektivi amerikalı yazıçı, ədəbiyyat üzrə Nobel mükafatçısı Con Steinbeqin eyniadlı əsərinin motivləri əsasında hazırladığı "Adamlar və siçanlar" tamaşasını nümayiş etdirib.*

Tamaşa başlanmazdan əvvəl "ƏSA" teatrının rəhbəri Nihad Qulamzadə teatrın fəaliyyətindən bəhs edib, tamaşa üçün yaradılan şəraitə görə minnətdarlıq edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək muxtar respublikada sağlamlıq imkanları məhdud insanlar üçün görülən tədbirlərdən danışıb, teatrsevərləri əlamətdar hadisə münasibətilə təbrik edib.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Uilyam Qil çıxışında Naxçıvanda olmaqdan məmnunluğunu ifadə edib, tamaşaya qoyulan əsərin əhəmiyyətindən söhbət açıb.

Sonra tamaşa teatrsevərlərə təqdim olunub. Quruluşçu rejissoru Nihad Qulamzadə olan tamaşada baş rolları Elşən Əsgərov (Lenni) və Elvin Mirzəyev (Corc) ifa ediblər. Rollarda Niyaz Qasımov (Kandi), Səmayə Ağayarova (Qız), İmran Lalayev (Slim), Günay Məmmədova (Klara xala), Fərid Əliyev (Karlson), Coşqun Məmmədov (Sahib), Asim Səfərov (Sahibin köməkçisi) iştirak ediblər. Dramatik janrda olan tamaşada, ümumilikdə, 10 aktyor rol alıb ki, onlardan da 7-si fiziki imkanları məhdud şəxslər.

Tamaşa, əsasən, insanlar arasında olan dostluq münasibətlərindən bəhs edir. Belə ki, Lenni və Corc adlı iki dostdan biri xəstə, yekəpər və güclü, digəri isə ağıllı və gücsüzdür. Onlar arzu və xəyallarını həyata keçirmək üçün birgə mübarizə aparırlar. Tamaşada insan sevdiyi dostuna görə nələrdən imtina edə bilər sualına cavab tapılır. Səhnə əsəri bu baxımdan mühüm aktuallıq kəsb edir.

3 dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə Naxçıvanda sağlamlıq imkanları məhdud şəxslər üçün göstərilən, sayca 4-cü tamaşa teatrsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

✍ **Nail ƏSGƏROV**

## Müasir iqtisadi inkişafın əsası peşə təhsilli kadrlardan asılıdır

Müasir dünya, eləcə də ölkə təcrübəsi göstərir ki, bu gün biznesi güclü edən yalnız ideya verən insanlar deyil, həm də icraçılardır. O icraçılar ki onlar istənilən məhsulun hazırlanmasında birbaşa iştirak edir, bu prosesdə çatışmayan tərəfləri görür, onu aradan qaldırmaq üçün bilik və bacarığını sərf edir. Sahibkarla sadə işçi arasında dayanan belə icraçılar məhz peşə təhsilli ixtisaslı kadrlardır. Onlar müasir dövrdə istənilən ölkə üçün ən mühüm kapitaldır. Çünki həyatımızın müxtəlif sahələrində çalışan çoxsaylı işçi kollektivlərinin əsasını elə bu cür insanlar təşkil edir. Təcrübə də sübut edir ki, peşə təhsilinə yiyələnmədən iqtisadiyyatın müxtəlif sahələrini, o cümlədən sənaye və kənd təsərrüfatını, tikinti və nəqliyyat sektorunu, yüzlərlə məişət xidməti sahələrini inkişaf etdirmək mümkün deyil. Unutmaq olmaz ki, kökü iqtisadi amilə bağlı istənilən sahənin inkişafı ali təhsilli kadrlarla yanaşı, həm də müxtəlif peşə təhsili almış ixtisaslı kadrlardan asılıdır.



Ölkəmizdə də bu sahənin inkişafı diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə peşə təhsili və təlimi sistemində 5 strateji hədəf müəyyən edilib. Qeyd edək ki, bu sənəd peşə təhsili və təlimi sahəsində dünyada mövcud meyillər nəzərə alınmaqla, ölkədə əmək bazarının tələblərinə uyğun təhsil proqramları əsasında ixtisaslı kadrlar hazırlayan peşə təhsili sisteminin inkişaf etdirilməsi məqsədilə çeviklik və inteqrasiya prinsipləri əsasında hazırlanıb. Sənəddə peşə təhsili və təlimi sektoru üzrə 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyən edilib. 2020-ci ilədək olan dövr üzrə strateji baxışa nail olmaq üçün strateji hədəflər və prioritetlər, o cümlədən icra müddətləri göstərilməklə müvafiq tədbirlər, əsas və digər icraçılar, gözlənilən təsirlər, icra mexanizmləri təfsilatlı şəkildə hazırlanıb.

Hazırda muxtar respublikamızda da peşə təhsili ən vacib istiqamətlərdən biridir. Son illərdə Naxçıvan Muxtar Respublikasında gənclərin peşə istiqamətinə cəlbi ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilib və bu işlər davamlı xarakter almaqdadır. Bu sahənin inkişafına yönəldilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, artıq bu gün muxtar respublikada nümunəvi peşə təhsili şəbəkəsi yaradılıb. Naxçıvan, Şərur və Ordubad Texniki-Peşə və Sürücülük məktəbləri, Naxçıvan Şəhər Peşə Liseyi, Regional Peşə Tədris Mərkəzi kimi peşə təhsili verən müəssisələrin fəaliyyəti nəticəsində hər il yüzlərlə gənc müxtəlif peşələrə yiyələnərək iş həyatına başlayır. Məsələn, muxtar respublikanın əmək bazarının tələblərinə uyğun olaraq 2017-ci ildə Naxçıvan Regional Peşə Tədris Mərkəzində 403 nəfər peşə kurslarına cəlb edilib. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində isə 3642 nəfər müxtəlif peşələrə yiyələnib. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Cəzaçəkmə Müəssisəsində 36 nəfər aşpaz köməkçisi, ağac üzərində oyma və bərbər peşələri üzrə təşkil edilmiş kurslarda iştirak edib. Cari ilin ilk 9 ayında isə muxtar respublikanın peşə təhsili müəssisələrini 1814 müdavim bitirərək müvafiq təhsil sənədi alıb. Hazırda da peşə təhsili müəssisələrində müdavimlər müvafiq qruplar üzrə təhsillərini davam etdirirlər. Buradan isə o qənaətə gəlmək mümkündür ki, muxtar respublika əmək bazarının tələbləri ixtisaslı kadrlar hesabına təmin olunur ki, bu da iqtisadiyyatın inkişafına öz töhfəsini verir.

✍ **Səbuhi HƏSƏNOV**

*Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Mehmet Emin Kiraz AMEA Naxçıvan Bölməsində olub.*

## Baş konsul AMEA Naxçıvan Bölməsində olub



Bölmənin sədri, akademik İsmayıl Hacıyev Azərbaycan-Türkiyə arasındakı qardaşlıq münasibətlərindən danışıb. O, ümummilli lider Heydər Əliyevin ***"Bir millət, iki dövlət"*** sözlərini xatırladaraq ölkələrimizin hər zaman bir-birlərinə dəstək verdiklərini deyib.

Akademik, həmçinin qonağa bölmənin yaranma tarixi və müxtəlif profilli institutlarında aparılan elmi-tədqiqat işləri barədə məlumat verib, həmin araşdırmaların əhəmiyyətindən söz açıb. Qeyd olunub ki, bölmənin müxtəlif institutlarında qədim diyarın tarixi, abidələri, mədəniyyəti, təbii ehtiyatları, biomüxtəlifliyi tədqiq və təbliğ olunur. Diqqətə çatdırılıb ki, bölmənin fəaliyyəti dövründə plandan əlavə olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi, diqqət və qayğısı ilə elmi əhəmiyyətli məlumat nəşrləri, fundamental tədqiqat əsərləri nəşr olunub.

Son illərdə iki qardaş ölkə arasında elmi əlaqələrin genişləndiyini vurğulayan bölmə sədri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 17 oktyabr və "Görkəmli alim Baba Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında" 2018-ci il 29 oktyabr tarixli sərəncamlarından, birgə tədqiqatların əhəmiyyətindən bəhs edib.

Görüş çərçivəsində çıxış edən AMEA-nın müxbir üzvləri – Fəxrəddin Səfərli və Əbülfəz Quliyev Türk Cümhuriyyəti Baş Nazirliyinin Osmanlı Arxivində saxlanılan Naxçıvanla əlaqədar mühüm tarixi sənədlərin əhatəli elmi araşdırmalara cəlb olunması, həmçinin Türk Dil Qurumunun yeni yayılan kitablarının əldə edilməsi, o cümlədən qardaş ölkənin muzey və kitabxanalarında Baba Nemətullah Naxçıvaninin əlyazma nüsxələrinin elektron variantının əldə edilməsinin zəruriliyini bildiriblər.

Naxçıvan Bölməsi ilə tanışlıqdan məmnunluğunu bildirən Mehmet Emin Kiraz bu elm müəssisəsində görülən işləri yüksək qiymətləndirib.

Görüş zamanı "Naxçıvan: tarixi və abidələri" və "AMEA Naxçıvan Bölməsi haqqında" (Azərbaycan və ingilis dillərində) kitablar qonağa hədiyyə olunub. Baş konsul isə "Böyük Səlcuqlu Mirası" adlı kitabı bölməyə təqdim edib.

**AMEA Naxçıvan Bölməsinin**
**İnformasiya şöbəsi**

*Mütəxəssis sözü*

# Arıçılıqda bol və keyfiyyətli məhsul zəhmət və qayğı tələb edir

***Muxtar respublikamızda arıçılığın inkişafına böyük diqqət yetirilir. Arıçılığın kompleks şəkildə inkişafına nail olmaq məqsədilə qəbul edilən dövlət proqramı, arıçılıqla məşğul olan sahibkarlara yaradılan şərait, arıçılıq məhsulları – bal festivallarının keçirilməsi bu sahənin inkişafına müsbət təsirini göstərib. Aqrar sahədə aparılan islahatlardan əvvəl muxtar respublikamızda cəmi 6045 arı ailəsi var idisə, artıq bu gün 71 mindən çox arı ailəsi qeydə alınıb.***



Bəs payızda arı ailələrinin qışlamaya hazırlanması üçün hansı işlər görülməlidir? Arıçılar nələrə diqqət etməlidirlər? Bu barədə həmsöhbətimiz Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin Epizootiya əleyhinə mübarizə və müalicə-profilaktika sektorunun baş məsləhətçisi Elnur Əliyevdir:

– Arıçılıq iqtisadi sahədən gəlirli, qida və müalicəvi əhəmiyyət baxımından xeyirli, ən faydalı təsərrüfat sahəsidir. Belə ki, arıçılıq təsərrüfatının yaradılmasına lazım olan xərc az, qoyulmuş xərcin qaytarılma müddəti qısa və iş şəraiti ekoloji-sağlamlıq cəhətdən əlverişlidir. Arı ailələrinin qışlamadan çıxması və yazda inkişafı payız dövründə güclü və kifayət qədər yemi olan arı ailəsi yetişdirilməsindən çox asılıdır.

Həmsöhbətimiz deyir ki, ailədən balı götürərkən qışlama dövrü üçün keyfiyyətli yem ehtiyatı saxlamaq lazımdır. Qış-yaz dövrü üçün ballı və ballı-güləmli şanların hazırlanmasına əsas məhsuldarlıq dövrünün birinci yarısından başlanmalıdır. Çünki həmin vaxt arılar yüksəkkeyfiyyətli bal toplayırlar. Qışlama dövrü üçün ehtiyat yemin kifayət qədər olması böyük əhəmiyyətə malikdir. Payız-qış dövrü üçün hər arı ailəsinə tələb olunan yemin 70-80 faizi yuvada, qalan hissəsi isə anbarda saxlanmalı və ehtiyac olduqda arılara verilməlidir. Hər çərçivə arası arı üçün 2-2,5 kiloqram bal olmalıdır.

Başqa canlılardan fərqli olaraq bal arıları qış üçün ehtiyat yem toplayır. Arıların qışlamaya hazırlaşmasının ilk əlaməti onların qış topası əmələ gətirməyə başlamalarıdır. Qış topasının yaradılma vaxtı ailənin gücündən çox asılıdır. Güclü ailələrdə yuvada temperatur 7, orta gücdə olan ailələrdə 10, zəif ailələrdə isə 13 dərəcəyə yaxın istilik olduqda qış topası yaranmağa başlanır. Arılar istiyə doğru hərəkət etməklə çərçivələrin mərkəzi hissəsinə sıxılıb üzəri möhkəm olan topa yaradırlar. Topanın daxili hissəsinin mərkəzində temperatur yüksək olub 28-32 dərəcəyə qədər artır. Onun yuxarı hissələrinə qalxdıqda temperatur tədricən azalır, aşağı hissəsində isə kəskin surətdə aşağı düşür. Topanın xarici qatında bu zaman 6-10 dərəcə olur.

Arılar qışa hazırlıq məqsədilə yuvaya vərəmum gətirib pətəyin açıq hissələrini bağlayır və uçuş bacasını kiçildirlər. Onlar vərəmum vasitəsilə yuvaüstü taxtanın aralıqlarını bağlayır və çərçivələri pətəyə yapışdırırlar. Arı ailəsi nektar yığdığı bütün dövrlərdə yuvanın kənar şanlarında qış üçün ehtiyat yem toplayır. Uçuş bacasının qarşısında yerləşən çərçivələrdə arılar qış topası əmələ gətirir və tədricən yemi yeməklə çərçivənin yuxarı hissəsinə doğru hərəkət edirlər. Şanın həmin hissələrində arı topasının yaratdığı istiliyin təsirindən şanlar və bal yumşaq olur. Belə vəziyyətdə arılar bal gözcüyünün qapağını asanlıqla açırlar. Möhürü açılmış bal yuvanın daxilində olan su buxarını çəkir və istifadə üçün yararlı bir şəkil alır. Nektar gəliri dövrü qurtardıqdan sonra arılar erkək arıları ailədən qovurlar. Yuvadan onların qovulması instinkt əlaməti olmaqla, toplanmış yemə qənaət məqsədi güdür.

Qışlama müddətində arılar toplanmış ehtiyat yemdən istifadə etməklə qış fəsli boyunca özləri üçün zəruri olan enerjini istehsal edirlər. Bütün qış müddətində topanın daxili təbəqəsində gündəlik temperaturda çox cüzi dəyişkənlik olur (gün ərzində 1-2 dərəcə). Fevral ayının axırında topanın mərkəzində temperatur 32-33 dərəcəyə qalxır və ana arının yumurta qoyması üçün şərait yaranır. Arı topası şanın yuxarı hissəsində olan ehtiyat yemi tamamilə istifadə etdikdən sonra yuvanın arxa hissəsinə doğru hərəkət edir. Topanın yerləşdiyi nahiyədə olan ehtiyat yem qışın ortalarında qurtararsa, ailənin normal qışlaması təhlükə qarşısında qalır. Bu zaman onlar pətəyin kənarlarına doğru hərəkət edirlər. Bəzən topa iki hissəyə bölünərək hərəsi yuvanın müxtəlif tərəflərinə keçir. Pətəyin bir tərəfinə keçmiş arı ailəsi orada qalmış yemdən tamamilə istifadə etdikdən sonra aclıqdan məhv olur. İki hissəyə bölünmüş arı topası mövcud yemdən çox istifadə etdikdə zəifləyir, uzunmüddətli qış dövründə isə məhv olurlar. Belə halların baş verməməsi üçün qışlama dövründə 2 kiloqramdan az olmayan ehtiyat yemli şanlardan istifadə edilməlidir.

Elnur Əliyev onu da bildirir ki, arı ailələrinin gücü artdıqca onların qidalanma tələbatı da artır. Normal arı ailəsində ana arı yumurtanı qışlamanın sonunda, narahat ailələrdə isə dekabr ayında qoymağa başlayır. Ailədə arı artımının olması qış topasının seyrəkləşməsinə və artıq yemin istifadə edilməsinə səbəb olur. Ona görə də arı ailələrinin normal qışlamasını təmin etmək üçün vaxtında zəruri tədbirlər görmək lazımdır.

Baş məsləhətçi onu da qeyd edir ki, arı ailəsinin inkişafı üçün lazımi şərait yaratmaq, ana arının yumurta qoymasını sürətləndirmək, arxanada tələb olunan istilik rejimini saxlamaq, enerji və balın sərf olunmasını azaltmaq üçün yazda və payızda yuvanın daha yaxşı isidilməsini təmin etmək lazımdır. Ona görə də bu məqsədlə yuvaların vaxtında, düzgün qaydada qısaldılmasının əhəmiyyəti böyükdür. Bunun üçün arı ailəsinin gücündən asılı olaraq şan çərçivəsi saxlanılır. Arıların miqdarı azaldıqca artıq şanlar çıxarılır. Yuvada tələb olunan rejimin saxlanılmasında, arıların inkişafında və yemin sərf olunmasında istilik olduqca mühüm rol oynayır. Normal istilik enerjisi yaratmaq üçün arılar enerji və yem sərf etməyə başlayırlar. Yuvada istilik rejimini saxlamaq məqsədilə arı sürfələri olan çərçivələr pətəyin ortasında yerləşdirilir, hər iki tərəfdən arakəsmə taxta ilə qısaldılır. Həmin tərəflərdə əmələ gəlmiş boşluqlara pətəyin divarı ilə arakəsmə taxtası arasına hər hansı bir istiləşdirici (pambıq döşəkcə) qoyulur. Arxanada güclü arı ailələrinin yuvaları yalnız üstdən, orta gücə malik ailələrin üstdən və bir yandan, zəif ailələrin isə üstdən və iki yandan isidilməsi məsləhət görülür.

Muxtar respublikamızda qışın sərt şaxtalı keçməsi ilə əlaqədar olaraq arı ailələri, əsasən, qışlama binalarında saxlanılır. Burada soba yandırmaq olmaz. Çünki qışlama binasının çox isti olması da yolverilməzdir. Bu, pətəkdəki balın rütubət almaq qabiliyyətini itirməsinə, arı ailəsinin susuzluq çəkməsinə və arı topaları daxilində temperatur rejiminin pozulmasına səbəb olar. Belə halda topa parçalana bilər və bu, qışlamanın normal keçməsinə pis təsir göstərər.

Noyabr ayından fevral ayının axırınadək arılar fəaliyyətsiz olur, bu müddət ərzində onlar açıq havada saxlandıqda belə, uçmur, hətta pətəyin daxilində heç bir iş görmürlər. Bu zaman arılar çərçivələrin arasında yaza kimi bir-birinə möhkəm sıxılır, hərdən yem ehtiyatı olan yerə tərəf hərəkət edirlər.

Başqa canlılardan fərqli olaraq arılar qışda anabioz (yuxu vəziyyəti) halında olmur, nəfəs alır, qidalanır və pətəkdə otaq temperaturu səviyyəsində (12-20 dərəcə) istilik saxlayırlar. Arılar qaranlıqda qışlayır. Ən zəif işıq və səs onlara həyəcan gətirir, qış topasının dağılmasına səbəb olur. Buna görə də qışlama binasında tam sakitlik olmalıdır.

Arıçı sahibkarlar göstərilən tövsiyələrə əməl etməklə arı ailələrini qışlamadan sağlam çıxarar, onların sayını artırar və keyfiyyətli bol məhsul istehsal etmiş olarlar.

**Ramiyyə ƏKBƏROVA**

## Hərbçilər arasında voleybol birinciliyi keçirilir



Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında voleybol birinciliyi keçirilir.

İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə 16 komanda qələbə uğrunda mübarizə aparır.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Voleybol Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdikləri yarışlar olimpiya sistemi üzrə keçirilir.

**Nəriman NƏCƏFOV**



## Dram kollektivlərinin ifaçılıq müsabiqəsinin əsas turu olub

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikamızda ilk dəfə olaraq dram kollektivlərinin ifaçılıq müsabiqəsi keçirilir.*

Müsabiqənin seçim turunda Naxçıvan şəhərindən 9, Ordubad rayonundan 6, Babəkdən 3, Şahbuzdan 3, Culfadan 2, Kəngərli və Sədərək rayonlarının hər birində 1 kollektiv olmaqla, ümumilikdə, 25 kollektiv iştirak edib.

Dram kollektivlərinin ifaçılıq müsabiqəsinin seçim turunun birinci mərhələsi bu il oktyabrın 16-da Naxçıvan şəhərində olub. Naxçıvan şəhəri, Culfa və Sədərək rayonlarından 12 dram kollektivinin iştirak etdiyi bu turda Naxçıvan şəhərindən "Nur" və "Sabit", Culfa rayonundan isə "Haçadağ" kollektivləri əsas tura vəsiqə qazana biliblər.

Naxçıvan şəhərində davam etdirilən seçim turunun ikinci mərhələsində isə Babək, Şahbuz və Kəngərli rayonlarından, ümumilikdə, 7 dram kollektivi iştirak edib. Bu seçim turunda isə Babək rayonundan "Gənclik" və "Səbinə" kollektivləri fərqləniblər.

Seçim turunun yekun mərhələsi isə oktyabr ayının sonlarında Ordubad Rayon Mədəniyyət Evində keçirilib. Rayonun 6 dram kollektivinin iştirak etdiyi bu turda "Gilançay" dram kollektivi əsas turda iştirak etmək hüququ qazanıb.

Beləliklə, dram kollektivlərinin ifaçılıq müsabiqəsində Naxçıvan şəhərindən 2, Babək rayonundan 2, Ordubad və Culfa rayonlarının hər birindən 1 kollektiv olmaqla, 6 dram kollektivi iştirak edib.

Noyabrın 28-də isə Naxçıvan Dövlət Uşaq Teatrının səhnəsində müsabiqənin əsas turu olub. Bu tura vəsiqə qazanan dram kollektivləri tərəfindən maraqlı səhnəciklər təqdim olunub. Münsiflər heyətinin qərarına əsasən Culfa rayonunun "Haçadağ" dram kollektivi I, Babək rayonunun "Səbinə" dram kollektivi II, həmin rayonun "Gənclik" dram kollektivi isə III yerə layiq görülüblər.

Dram kollektivlərinin ifaçılıq müsabiqəsi yaxın günlərdə mükafatlandırma mərasimi ilə başa çatacaqdır.

**Əli RZAYEV**

## Hüquqi maarifləndirmə günün tələbidir

*Sual: İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə hansı məsuliyyətə səbəb ola bilər?*

***Cavab:*** Ölkəmizdə ictimai münasibətlər, istehsal vasitələri və cəmiyyət inkişaf etdikcə elmi-texniki tərəqqi və elmi-texniki inkişaf mövcud qanunvericiliyə, o cümlədən cinayət qanunvericiliyinə də sirayət edir. Belə olan təqdirdə cinayət qanunvericiliyi də dövrün tələblərinə, informasiya texnologiyalarının inkişaf tempinə uyğun şəkildə redaktə edilərək təkmilləşdirilir. Müasir internet texnologiyalarının məhsulu olan şəbəkələr və sosial informasiya resurslarından istifadə zamanı qanunsuzluqlara yol verilməsi faktları nəzərə alınaraq Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə 2016-cı il 29 noyabr tarixli Qanunla internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə adlanan 148-1-ci maddə əlavə edilmişdir. Qanunla internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə əməlləri cinayət əməli hesab edilir.

İnternet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar isə saxta istifadəçi adlar, profil və ya hesablar hesab olunur. İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtanatma və ya təhqiretmə əməlini törətmiş şəxs və ya şəxslər cinayət qanunvericiliyi ilə min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 865